| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | MGT 410 Təşkilati davranış , 3 kredit |
| | Departament | Təhsil |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2024-2025-ci tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Kazımov Asəf Əsəd oğlu |
| | E-mail: | a.kazimli@gmail.com |
| | Telefon: | |
| | Mühazirə otağı/Cədvəl | Şənbə günü |
| | Məsləhət saatları | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | Korrekvizit | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Axundova N.F. Təşkilati davranış. Dərs vəsaiti. “İqtisad Universiteti” Nəşriyyatı. Bakı 2014. 132 səh.<br>2. İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı . Bakı 2013. 280 səh. | |
| **Kursun təsviri** | Müasir dövrdə işə götürən şəxs üçün işçinin biliyi, onun icraçılıq intizamından və instruksiyaları yerinə yetirmək hazırlığından daha vacibdir. Öyrənmək bacarığı hər şeydən daha çox qiymətləndirilməyə başlayır. Bunun nəticəsində işə götürən şəxslər və işçilər arasında münasibətlər dəyişir. Təşkilati davranışın məğzi individlərin, qrupların, təşkilatların davranışının sistematik, elmi analizindən ibarətdir. Bu zaman əsas məqsəd xarici mühitin təsirini nəzərə almaqla təşkilatın və individin fəaliyyətini inkişaf etdirməkdir. Təşkilati davranış qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi və təşkilatın fəaliyyətinin effektivliyinin artırılması məqsədilə individlərin, qrupların davranışının öyrənilməsi və formalaşdırılmasını nəzərdə tutur. | |
| **Kursun məqsədləri** | Təşkilati davranış fənninin əsas məqsədi, bir təşkilat və ya quruluşda olan insanlar arasındakı münasibətləri öyrənmək, bu münasibətlərə yaranmasına istiqamətlənən səbəbləri tapmaq və iş hədəflərinə çatmada daha yaxşı nəticələr əldə etmək üçün bu münasibətlərə təsir etməkdən ibarətdir. Eyni zamanda, Təşkilati davranışın digər məqsədi, bir təşkilat mədəniyyəti formalaşdırmaq, ən yaxşı keyfiyyətlərə malik işçiləri işə almaq və bu işçilər arasında anlamlı əlaqələr qurmaq, anlaşılmazlıqları və mübahisələri həll etmək, işçilərin şəxsi keyfiyyətlərini inkşaf etdirmək, sağlam və təmiz bir liderlik zənciri formalaşdırmaqdır. Təşkilati davranışın mahiyyəti, ətraf mühitin təsirini nəzərə almaqla, təşkilatın fərdi davranışını və fəaliyyətini anlamaq, qabaqcadan proqnozlaşdırmaq və təkmilləşdirmək məqsədilə, fərdlərin, qrupların, təşkilatların davranışının sistematik şəkildə elmi təhlilə cəlb olunmasından ibarətdir. Bu fənnin qarşısında dörd vəzifə durur:<br>➢ təsvir (əməklə bağlı müxtəlif situasiyalarda insanların davranışının sistematik təsviri);<br>➢ dərketmə (müəyyən şəraitdə fərdlərin etdiyi hərəkətlərin izahı);<br>➢ proqnozlaşdırma (vəziyyəti qabaqcadan görmək qabiliyyəti və menecerin peşəkar biliyi, habelə intuisiyası əsasında onun inkişaf etdirilməsi);<br>➢ müəyyən hadisə və proseslərin idarə edilməsi (iş prosesində insanların davranışının idarəedilməsi bacarığına yiyələnmə və onların fəaliyyətinin səmərəliliyinin artırılması yollarının axtarılması). | |

<table>
<tr><td></td><td colspan="3">Beləliklə, demək olar ki, təşkilati davranış -insanın əmək fəaliyyətinin səmərəliliyinin artırılması üçün əldə edilən biliklərin praktiki istifadəsi məqsədilə, təşkilatlarda insanların (fərdlərin və qrupların) davranışını öyrənən bir elmdir.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">➢ İdarəetmə psoxologiyasına dair biliklərini artırmaqla içtimai, sosial münasibətləri iqtisadi və idarəetmə aspektdən təhlil edə biləcək;<br>➢ Təşkilati davranışa aid qəbul edilən qərarların nəticələrini nəzərə almaq bacarığına malik olacaqdır;<br>➢ Menecment düşüncəsinə sahib olmaqla analitik təhlilləri, o cümlədən, əmək fəaliyyətinin təşkili, insan resurslarının bu fəaliyyətin təmin olunmasında rolu və s. imkanları əsaslı şəhildə analiz edəcəkdir.<br>➢ Komanda işi bacarığı, problemlərin həllinə birgə yanaşmanın inkişafını təmin edəcəkdir;<br>➢ Bilik və bacarıqları təkmilləşdirmək üçün özünü və digərlərini qiymətləndirə biləcəkdir;<br>Həmçinin, idarəetmədə baş verən hadisələrdən qaynaqlanan yeni situasiyalara uyğunlaşmaq bacarığı, təşəbbüskarlıq qabiliyyətini yaradır. Təşkilatlarda insan resurslarının idarə edilməsinin formalaşması və inkişafı ilə bağlı olan hər bir məsələnin dərindən dərk edilməsi və öyrənilməsinə səbəb olacaqdır; Təşkilati davranış sahəsində qanunvericiliyinin öyrənəcəkdir. Psixoloji təhsilə, komanda işi bacarığı, problemlərin həllinə birgə yanaşmanın inkişafını təmin edəcəkdir. İşgüzar ünsiyyət imkanlarının genişlənməsinə nail olacaqdır.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="5">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Praktiki dərs</td><td>Hər seminar saatında bir həftə öncə keçirilmiş mühazirə mövzusuna uyğun olaraq verilmiş ev tapşırığının dinlənilməsi (slaydla təqdim edilməsi), müzakirəsi aparılacaqdır. Praktiki dərs 0-10 bal şkalasında qiymətləndiriləcəkdir. Hər həftənin şənbə günü.</td><td>10</td></tr>
<tr><td>Tapşırıq</td><td>Semestrin əvvəlində tədqiqat xarakterli hər bir tələbə üçün bir mövzu təqdim ediləcək və 21.12.2024-cü il tarixinə kimi müddət ərzində təqdimatı 0-10 bal şkalasında qiymətləndiriləcəkdir. Tapşırığı gecikdirən yaxud təqdim etməyən tələbə 0 balla qiymətləndiriləcəkdir.</td><td>10</td></tr>
<tr><td>Yoxlama (quiz)</td><td>Keçirilmiş mövzulara müvafiq olaraq 2 açıq sual təqdim etməklə (hər biri 0-5 balla qiymətləndiriləcəkdir) 30.11. 2024-cü il tarixində keçiriləcəkdir.</td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>İlk 5 mövzuya aid 5 açıq suallar formasında 0-6 balla qiymətləndiriləcək. Keçirilmə</td><td>30</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | tarixi 01.11.2024-cü il nəzərdə tutulur. | |
| | **Final imtahanı** | 6-14 mövzulara aid 5 açıq suallar formasında 0-8 balla qiymətləndiriləcəkdir. 01. 2025-ci il tarixi (tarix dəqiqləşdiriləcək). | 40 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Fəallıq:** Dərsin interaktiv qaydada keçirilməsi nəzərdə tutulur. Aktivliyin qiymətləndirilməsi üçün tələbələrin dərs müddətində həyata keçiriləcək diskussiyalarda, sual-cavablarda fəal iştirak etməsi,prezentasiya təqdimatı, keçirilən dərslər üzrə geniş araşdırmalar aparıb müzakirələrdə təqdim etməsi tələb olunur. **Plagiat haqqında:** Plagiat digər müəlliflərin yazılarına istinad etmədən onlardan olduğu kimi istifadə edilməsidir. Plagiat edən tələbələr sıfır (0) alacaq və cərimə olunacaqlar. Tələbələr kurs işi/layihə mətnində başqa müəlliflərin yazılarından istifadə edərkən mütləq istinadlar göstərməlidirlər. **Quiz haqqında:** Quiz semesterdə bir dəfə,tələbələrə yazılı olaraq iki açıq sual verməklə keçiriləcək. Sualların məzmunu tələbələrə əvvəlcədən bildiriləcək. Tələbələr Xəzər Universitetinin davamiyyət qaydalarına riayət etməlidirlər. Onlar xəstə və ya rəsmi icazə aldığı (dekanlıq tərəfindən təsdiq olunmuş formada) hallardan başqa bütün dərslərdə iştirak etməlidirlər. Semestr ərzində ümumi auditoriya saatının 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır. | | |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 21.09.2024 | Təşkilati davranışın təqdimatı | Menecmentdə yeni perspektiv. Müasir prizmadan təşkilati davranış və onun tarixi. Təşkilati davranışın əsasları. Menecment, təşkilat və təşkilati davranış. Təşkilati davranışın elementləri. Təşkilati davranışın modelləri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 10-24) |
| 2. | 28.09.2024 | Şəxsiyyət, onun təşkilatda rolu və davranışı | Fərdi davranışın əsasları. Fərdi davranış. Fərdi müxtəlifliklər. Şəxsiyyətin ölçüləri, fiziki və intellektual keyfiyyətlər. Şəxsi dəyərlər və əxlaq. Təşkilatlarda əxlaq mühitinin yaxşılaşdırılması. Şəxsiyyətin formalaşdırılması. Təşkilatlarda şəxsiyyət faktorları. A və B tipli şəxsiyyətlər. İş əxlaqı orientasiyası. Effektiv menecerlər üçün arzuolunan şəxsiyyət xüsusiyyətləri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 46-67) |
| 3. | 05.10.2024 | Motivasiya, öyrənmə və davranış | Motivasiya və onun əhəmiyyəti. Motivasiya barəsində nəzəriyyələr. Təşkilatlarda motivasiyanın artırılması. Menecerlər üçün motivasiya artırıcı yanaşmalar. Öyrənmə və davranış dəyişikliyi. Öyrənmə prosesinin komponentləri. Öyrənmə nəzəriyyələri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 69-107) |

| | | | |
|---|---|---|---|
| 4. | 12.10.2024 | Təşkilatlarda davranış prinsipləri və davranış kodeksi | Davranış kodeksinin məqsədi və əhatə dairəsi. Davranış kodeksi. Münasibət və dərk etmə. Münasibətin formalaşması və dəyişməsi. Münasibətin təşkilati davranışda vacibliyi. Qəbuletmə. Təəssürat menecmenti. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 107-125) |
| 5. | 19.10.2024 | Liderlik və təşkilati davranış | Liderin xüsusiyyətləri və liderin vəzifələri. Liderliklə menecment arasındakı fərq. Liderlik növləri. Liderlik nəzəriyyələri. Təşkilatlarda liderlik perspektivləri. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 125-144) |
| 6. | 02.11.2024 | **Aralıq imtahanı** | |
| 7. | 09.11.2024 | Qrup, onun təşkilatda rolu və davranışı | Qrup dinamikası. Qrupa ehtiyac, qrup tipləri. Qrup formalaşması. Qrup normaları. Qrup münaqişəsi. Münaqişənin növləri və səviyyələri. Təşkilati ünsiyyəti. Ünsiyyət prosesi. Ünsiyyətdə maneələr. Ünsiyyət metodları. Ünsiyyət şəbəkələri. Təşkilati ünsiyyətin formaları. Güc, gücdən istifadə. Siyasi davranış və təşkilat siyasəti. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 162-221) |
| 8. | 16.11.2024 | Təşkilati səviyyədə davranış və ona təsir göstərən amillər | Təşkilati tərtibat və müasir formaları. Təşkilati mədəniyyət və mühit. Təşkilati davranış qlobal səviyyədə. Beynəlxalq işçi qüvvəsinin menecmenti. Mədəni uyğunlaşmada baryerlər, mədəni məsafə, mədəni sarsılma. Mədəni təsadüflər. Təşkilatın effektivliyi. Dəyişikliyin menecmenti. Təşkilati dəyişikliklə bağlı yanaşmalar. Dəyişikliyə müqavimət. Təşkilatın inkişafı. (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 121-262) |
| 9. | 09.11.2024 | Qrup, onun təşkilatda rolu və davranışı | Qrup dinamikası. Qrupa ehtiyac, qrup tipləri. Qrup formalaşması. Qrup normaları. Qrup münaqişəsi. Münaqişənin növləri və səviyyələri. Təşkilati ünsiyyəti. Ünsiyyət prosesi. Ünsiyyətdə maneələr. Ünsiyyət metodları. Ünsiyyət şəbəkələri. Təşkilati ünsiyyətin formaları. Güc, gücdən istifadə. Siyasi davranış və təşkilat siyasəti (İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 162-221) |
| 10. | 23.11.2024 | Təşkilatda iş yerinin layihələşdirilməsi | İş yerinin layihələşdirilməsinə müxtəlif yanaşmalar. Əməyin zənginləşdirilməsi. İşlərin xarakteristikaları və iş tapşırıqlarının formalaşdırılması. İş yerlərinin yenidən layihələşdirilməsi üzrə tövsiyələr(Axundova N. F. Təşkilati davranış. “İqtisad Universiteti” Nəşriyyatı. |

| | | | |
|---|---|---|---|
| | | | Bakı 2014. Səh.59-66) |
| 11. | 30.11.2024 | İdarəetmədə kommunikasiyalar | İki tərəfli kommunikativ proses. Zəifləyən kommunikasiyalar. Yüksələn kommunikasiyalar. Üfüqi kommunikasiyalar. Qeyri-formal ünsiyyət. Effektiv kommunikasiyalar yolunda maneələr. (Axundova N. F. Təşkilati davranış. "İqtisad Universiteti" Nəşriyyatı. Bakı 2014. Səh.100-109) |
| 12. | 07.12.2024 | Təşkilati mədəniyyət | Təşkilati mədəniyyət nədir. Təşkilati mədəniyyətin funksiyaları. Təşilati mədəniyyətin mərhələləri. Təşilati mədəniyyətin mənbələri. Təşilatın ideologiyası. (Axundova N. F. Təşkilati davranış. "İqtisad Universiteti" Nəşriyyatı. Bakı 2014. Səh.109-116) |
| 13. | 14.12.2024 | İnsan həyatında karyera | İş karyerası. Dinamik və statistik, şaquli və üfiqi karyera Karyeranın uğuru Karyeranın inkişafı Karyera mövqeləri Karyeraya uyğunlaşma. Karyerada şərti olaraq bir neçə mərhələlər. (Axundova N. F. Təşkilati davranış. "İqtisad Universiteti" Nəşriyyatı. Bakı 2014. Səh.116-122) |
| 14. | 21.12.2024 | Rəhbərin idarə qərarları | İdarəetmə qərarlarının mahiyyəti. İdarəedən şəxsin psixoloji cəhətləri. İdarə qərarlarının qəbulunda rəhbərlərin obyektiv və subyektiv səhvləri. Psixohəndəsi fiqurların köməkliyi ilə idarə qərarlarının yoxlanılması. (Axundova N. F. Təşkilati davranış. "İqtisad Universiteti" Nəşriyyatı. Bakı 2014. Səh.122-130) |
| 15. | 28.12.2024 | Kursun yekun icmalı | Fənnə dair qeyd edilmiş mövzuların birgə təhlili və müzakirəsi. |
| **Final imtahanı** | | | |